UOT 0069

**Elfira Məlikova-Qurbanova**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**E-mail:elfira. melikova. 63@mail. ru**

## Muzey mənbəşünasığı: tədqiqatlar və faktlar

**Xülasə:** Muzeylərdə əsas tədqiqat obyekti fondlardır. Belə ki, məhz muzey predmeti ilkin informasiyanın qoruyucusudur. Bu predmetlər araşdırılıb tədqiq edilərkən elmi nəzəriyyə və öyrənilmə metodikası toqquşur. Muzey mənbəşünaslığı profil elmlərin ümumi mənbəşünaslığından fərqlənir. Muzey mənbəşünaslığı ilk növbədə, muzey predmetinin əsas hissəsini təşkil edən mənbələrin əşyavi və təsviri dəlillərinə yönəldilir. Muzeyin elmi əməkdaşları kolleksiyanın öyrənilməsi üçün planlı iş aparır. Nümunəvi göstərici muzey əməkdaşlarının çap etdirdiyi elmi əsərlərdir.

**Açar sözlər:** arxiv, mənbə, muzey, elm, tədqiqatlar

Qədim Çin alimi və filosofu Konfutsi deyirdi: “Öyrənmək və zamanı gəldikdə qavranılan bilikləri işdə tətbiq etmək - məyər bu gözəl deyilmi?”. Onun bu fikri bütün elmlərin özəyində durur. Məhz öyrənmək! Konkret bir elm sahəsi tədqiq edilərkən digər yaxın elmlərin araşdırılmasına da zəruriyyət duyulur. Elmi araşdırmalar zamanı müxtəlif mənbələrə, xüsusilə arxivlərə edilən müraciət araşdırmaları daha da dəyərli və keyfiyyətli edir. Dövlət və muzey arxivlərində araşdırmaların aparılmasına yönələn yol, tədqiqatçının ona qədərki, tədqiqatçılıq fəaliyyətinin kəmiyyətindən və keyfiyyətindən asılıdır. Arxivlərdə qorunan məlumatların üzə çıxarılması, əsərlərdə təhlil edilməsi müəllifin bilik tələbatının göstəricisidir. Yaradıcılıq işində hətta bir mənbə olaraq dövrü mətbuat (qazet materialı) çox hallarda böyük tarixi faktı özündə əks etdirir.

Muzey mənbəşünaslığı demək olar ki, bir çox alimlərin tədqiqat obyektinə çevrilir. Lakin, muzey əməkdaşının muzey fondu və arxivindən istifadəsi xüsusi əhəmiyyətə malikdir. Muzey üçün çox əhəmiyyətli amil muzey kollektivinin birgə şəkildə böyük elmi tədqiqat işlərinə imza atmasıdır.

Muzeyşünaslıq elminin inkişafı muzey fəaliyyətlərindən çox aslıdır. 1920-30-cu illərdə Muzeyşünaslıq elminin əsası qoyulmuşdur. Məhz XX əsr bu elmin yaranma və inkişafı tarixi haqqında çap edilən ən fundamental əsərlərdən biri olan “Muzeyşünaslıq. Tarix profilli muzeylər” adlı əsərdə yazılır: “Rusiyanın Lenin ordenli Dövlət Tarixi muzeyinin və Alman Demokratik Respublikasının alman tarixi muzeylərinin muzeyşünasları birgə əməkdaşlıq

yolu ilə yaradıcılıq əlaqələrinin həyata keçirilməsi üçün müqavilə bağlamışlar. Bağlanılan müqavilə əsasında aparılan tədqiqatlar böyük elmi nəticə vermişdir" (1. s. 3). Məhz bu elmi nəticələrdən biri də 1988-ci ildə "Muzeyşünaslıq. Tarix profilli muzeylər" adlı dərs vəsaitinin çap edilməsi oldu. Bu elmi əsər muzeyşünaslıq elminin yaradılması zəruriyyəti, bu elmin xüsusiyyətləri və strukturu haqqında dəqiq materialların məcmusudur.

Kitabın giriş hissəsində yazılır: "Bu kitab sosialist ölkələrində və xüsusilə SSRİ və Almaniya Demokratik Respublikası arasında aparılan yaradıcılıq əlaqələri, muzeylərin tarixi, muzey işi sahəsində təcrübənin və nəzəri tədqiqatlarının nəticələrinə əsaslanır. Təbii ki, müəlliflər daha çox tarix profilli muzeylərin təcrübəsinə istinad etmiş, tarix profilli muzeylərin unikal və universal kolleksiyasının, əsasən tədqiqat və tədris-tərbiyə, təbliğat yaradıcılığına zəngin təcrübəsinə əsaslanmağa çalışmışlar" (1. s. 4).

Muzey tarixi göstərir ki, muzeylərdə elmi potensiala malik olan yüksək səviyyəli əməkdaşlar çalışmalıdır. Çünki, muzeyin əsas təbliğatı elmi tədqiqat işindən keçir.

Azərbaycanın muzey tarixində elmi tədqiqatların aparılması ənənəsi ilk başlanğıcdan, yəni 1920-ci ildə Dövlət muzeyi qurulandan qoyulmuşdur. Muzeydə çalışan tarixçilər, arxeoloqlar, numizmatiklər, etnoqraflardanYevgeniy Paxomov, Davud bəy Şərifov, Ələskər Ələkbərov, Saleh Qazıyev, İsaq Cəfərzadə, Püstəxanım Əzizbəyova, Nərmin Tahirzadə, Əli Rəcəbli, Zərifəxanım Dulayeva, Nailə xanım Vəlixanlı, Məmməd Məmmədov, İnna Kostinavə s. kimi alimlər müxtəlif dövrlərdə muzeydə fəaliyyət göstərən və davamlı olaraq çalışan əməkdaşlar dəyərli elmi əsərlər yazmış və yazmaqdadır. Bu faktlar muzeyin arxivində öz əsasını tapır və muzey əməkdaşları haqda məlumat verir.

Dövlət muzeyinin elmi mərkəzə çevrilməsi və müasir dövrümüzdə də bu istiqamətdə fəaliyyətin davam etdirilməsi səmərəli xarakter daşıyır. Bu proses Nizami adına Ədəbiyyat muzeyində də mütəşəkkil şəkildə həyata keçirilir. Eyni zamanda 1936-cı ildə fəaliyyətə başlayan Milli İncəsənət muzeyində də elmi əməkdaşların apardığı tədqiqatlar muzey üçün araşdırmaların aparılması prosesini bir ənənəyə çevirmişdir.

Muzeydə çalışan hər bir işçi vəzifəsindən asılı olmayaraq tədqiqat işi apararaq elmi əsərlər yazmaqla bərabər, dövrü mətbuatda da yeni informasiyalarla çıxış etməlidir. Muzeylər mütəşəkkil şəkildə kataloqlar hazırlamalı və kollektiv olaraq böyük elmi toplulara imza atmalıdır. Milli muzeylərimizin ilk əməkdaşları bu işin əsasını qoymuşdur.

Buna misal olaraq Milli İncəsənət muzeyində ilk dövrlərdən elmi işçi vəzifəsində çalışanlardan: B. Ələkbərova, T. Bədəlova, İ. Koqnovitskaya, M.

Nəcəfov "R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi. Daimi ekspozisiya" adlı rus dilində kataloq tərtib etmişlər. Bu kataloq 1961-ci ildə çapdan çıxmış ən dəyərli kitablardan biridir. Belə ki, muzey kolleksiyası 40 ildən artıq (əvvəl Dövlət muzeyində və daha sonra ADİM) toplanan dəyərli kolleksiyanın rəsmi qaydada təqdimatı idi (2).

Adları çəkilən elmi işçilər daimi olaraq dövrü mətbuatda elmi araşdırmaların nəticələri ilə çıxış etmişlər.

1950-70-ci illərdə mütəmadi olaraq Azərbaycan rəssamlarının keçirdiyi sərgilər elmi-nəzəri, təcrübi biliklərin formalaşması üçün yeni ideya verdi. İncəsənət muzeyinin əməkdaşları bu sərgilər haqda dövrü mətbuatda tez-tez çıxış edirdi. Onlardan: sənətşünas-alimlər: Mürsəl Nəcəfov, Məmmədağa Tərlanov, Rasim Əfəndiyev, Cəmilə xanım Novruzova, Kərim Kərimovun adlarını çəkmək olar (3. s. 64).

Bu dövrdə çalışan muzey əməkdaşlarının əsas məqsədi ziyarətçiləri muzeyin həyatına cəlb etmək idi.

"Moskva şəhəri Mədəniyyət Nazirliyinin Təsviri sənət üzrə Ali Dövlət Baş İdarəsinin Bədii emalatxanasında təhsilini bitirən Fərhad Hacıyev bərpaçı mütəxəssis kimi formalaşaraq vətənə qayıdır" (4. s. 341). 1957-ci ildə Bakıya qayıdan Fərhad Hacıyev Azərbaycan Dövlət İncəsənət Muzeyində yeni açılmış "bərpaçılıq emalatxanası"nda bərpaçı-rəssam kimi fəaliyyətə başlayır" (4. s. 342). Muzeydə onlarla əsəri bərpa edən, yeni əsərlər yaradan Fərhad Hacıyev eyni zamanda öz işinə vətəndaş mövqeyindən də yanaşırdı. Qarşıya çıxan çətinlikləri aradan qaldırmaq üçün (təkcə sənətkarlıq baxımından deyil), aidiyyəti təşkilatlara müraciət edir, eyni zamanda bu problemlər haqqında dövrümətbuatda elmi məqalələrlə çıxış edirdi. "Aşağıda adı çəkilən məqalələrdə bərpa işi ilə əlaqədar olan hər bir problem ciddi şəkildə müzakirə edilərək, qüsurların aradan qaldırılmasını ön plana çəkilirdi. 1. "Vacib məsələ" – Ədəbiyyat və incəsənət qəzeti, 12 fevral 1966, №7; 2. "Это очень нужно" газ. Баку, 1 ноября 1968 г.; 3. "Долгую жизнь" журнал, Советская живопись, 1970 г. ; 4. "Сохранить на века" газ. Баку, 2 января 1980 г.; 5. "Кто поможет реставраторам" Специалист ставит проблемы, газ. Баку 18 января. 1986. (4. s. 342. )

Azərbaycanda muzey anlayışı yarandığı zamandan elmə yeni nəfəs gəlmişdir. Dövlət muzeyinin yaradılmasına qədər ki, dövrdə Azərbaycanın dühalarından qalan elmi mənbələr milli tariximizin ən böyük salnaməsidir. Hal-hazırda Milli Azərbaycan Tarixi Muzeyi və Nizami adına Ədəbiyyat muzeyləri tərəfindən fundamental mənbələr əsasında elmi əsərlər hazırlanır.

Ən maraqlı faktlardan biri də müxtəlif humanitar sahələr üzrə çalışan və tarixi faktlara görə iki müxtəlif muzeyin əməkdaşları olan Bəkir Nəbiyev və

Mürsəl Nəcəfov tərəfindən (böyük alimlərin) birgə müəllifi olduqları kitabın yazılmasıdır. Nizami adına Azərbaycan Ədəbiyyatı muzeyinin 1971-1988-ci illər direktoru vəzifəsində çalışmış ədəbiyyatşünas alim, akademik Bəkir Nəbiyev və 1936-cı ildə İncəsənət muzeyinin açıldığı gündən elmi işçi və şöbə müdiri vəzifələrində çalışmış, uzun müddət Rəssamlıq İttifaqının elmi katibi olmuş-sənətşünas alim, professor (rəssam) Mürsəl Nəcəfovun yazdıqları "Sovet Azərbaycanı. Ədəbiyyat və incəsənət 50 ildə" kitabıdır. Azərbaycan Dövlət nəşriyyatı tərəfindən 5000 tirajla 1970-ci ildə işıq üzü görmüş kitabdır. Bu kitabda 1920-1970-ci ilə qədər Azərbaycan ədəbiyyatı və incəsənəti layiqli şəkildə təhlil edilir. Fundamental əsərlər içərisində bu kitabın xüsusi yeri var.

Dəyərli mənbələr içərisində xalçaçı rəssam uzun müddət xalça muzeyində çalışmış Cəfər Mücirin müəllifi olduğu "Azərbaycan xalçaları" adlı kataloqun da adı çəkilə bilər. Kataloq 1981-ci ildə üç dildə çap edilmiş, kataloqda Azərbaycan xalçaları haqqında tarixi faktlara və illüstrasiyalara yer verilmişdir.

Müxtəlif vaxtlarda çap edilən hər bir əsər muzey üçün dəyərli sayılır. Məsələn, Milli Azərbaycan Tarixi Muzeyi muzeyin 80 illiyi ilə əlaqədar 2000- ci ildən başlayaraq "Milli Azərbaycan Tarixi Muzeyi" adlı elmi əsərlər toplusu hazırlayır. Bu əsərlər toplusunun əsasını muzeyin kolleksiyası üzərində aparılan tədqiqatlar təşkil edir. Bu topluda çap edilən elmi məqalələrin əksəriyyəti muzey əməkdaşlarının apardığı tədqiqatlarını əhatə edir.

2002-ci ildə Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin əməkdaşları filologiya elmləri namizədi, əməkdar mədəniyyət işçisi Məhəbbət Mehdiyeva və filologiya elmləri namizədi Səmayə Mövlayevə üç dildə "Bakının ədəbiyyat muzeyləri" adlı kitab – bələdçi tərtib etmişlər. Bu kitab- kataloqda Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi, Səməd Vurğunun, Cəfər Cabbarlının, C. Məmmədquluzadənin, Hüseyn Cavidin ev- muzeyləri; Üzeyir Hacıbəyovun Dövlət xatirə ev-muzeyi, Sergey Yeseninin, Abdulla Şaiqin mənzil muzeyləri, Nəriman Nərimanovun, Məmməd Səid Ordubadinin xatirə muzeyləri haqda geniş məlumat verilir.

Uzun illər aparılan tədqiqatlar Azərbaycan muzeylərində böyük elmi potensialın yetişməsi faktını üzə çıxarır. Muzey əməkdaşları tərəfindən çapedilən əsərlər nümunəvi xarakter daşıyır. Muzeylər tərəfindən hazırlanan hər yeni əsər təbliğ edilməlidir. Hər yeni əsərin təqdimatı keçirilməlidir.

**Ədəbiyyat:**

1. Elfira Məlikova-Qurbanova. Azərbaycan muzeyşünaslığı. Monoqrafiya. Bakı. 2020.

2. Elfira Məlikova-Qurbanova Azərbaycanın ilk bərpaçı-rəssamı Fərhad Hacıyevin yaradıcılığına dair. Milli Azərbaycan Tarixi Muzeyi. Bakı – 2017, s. 341- 342
3. Музееведение. Музеи исторического профиля. Под редакцией проф. К. Г. Левыкина и проф. В. Хербста. Москва. 1988 г.
4. Азербайджанский Государственный музей искусств им Р. Мустафаева. Постоянная экспозисия. Каталог. Составители научные сотрудники
5. Азербайджанского государственного музея искусств имени Р. Мустафаева. Б. Алекперова, Т. Бадалова, И. Когновицкая, М. Наджафов. 1961 г.

**Музейное источниковедение: исследование и факты.**

**Резюме**

Основным объектом исследования в музеях являются фонды. Так как именно музейный предмет является хранителем первичной информации. При исследовании и изучении этих предметов стыкуется научная теория и методика исследования. Музейное источниковедение отличается от общего источниковедения профильных наук. Музейное источниковедение в первую очередь направлено на вещественные и изобразительные типы источников, составляющих основную часть музейного предмета. Научные сотрудники музея проводят плановую работу по изучению коллекции. Образцовым показателем являются научные труды, опубликованные сотрудниками музея.

**Ключевые слова:** архив, источник, музей, наука, исследование

**Museum source studies research and facts.**

**Summary**

The object of research in museums are funds because the items keep their original, initial information. In the study and research of these subjects, scientific theory is combined with methodology.

Museum source studies differs from general source study of specialized sciences. Museum source studies are primarily aimed at material visual types ofsources that make up a significant part of museum items.

Museum researchers, studying the collections, conduct planned research. An exemplary indicator is a scientific publication of the museum staff.

**Key words:** source, archive, museum, science, research.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 03. 08. 2020**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11. 08. 2020**
**Məqalənin çapa qəbul olunma tarixi: 26. 08. 2020**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: pedaqogika üzrə fəlsəfədoktoru, dosent Yeganə Eyvazova**